Son illərdə Azərbaycan dövlətinin diqqət və qayğısı sayəsində dünyanın nüfuzlu ali təhsil müəssisələrində yüksəkixtisaslı mütəxəssislər kimi yetişərək vətənə dönən gənclərimiz artıq ölkəmizin inkişafı naminə öz töhfələrini verməkdədirlər. “Azərbaycan müəllimi” bu gənclərdən biri, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyanın Bristol Universitetində ali təhsilini uğurla başa vurmuş Nigar Fətələva ilə müsahibəni oxucularına təqdim edir.



Dövlət Proqramı təqaüdçüləri

## Bristol Universitetinin məzunu

# “NEYROELM TƏHSİL SİYASƏTİNDƏ YENİLİKLƏRƏ SƏBƏB OLA BİLƏR”

## “Dövlət Proqramı məzunu olaraq mənim üçün əsas prioritet qazandığım bilikləri Azərbaycan təhsil sistemində tətbiq etməkdir”

*- Xahiş edirik, özünüz barədə məlumat verəsiniz, sizi necə tanıyaq?*

- Mən orta və bakalavr təhsilimi Azərbaycanda, magistr təhsilimi isə Böyük Britaniyada bitirmişəm. 2018-ci ildə “Zəkalar” liseyini fərqlənmə ilə başa vuraraq məzun olmuşam. 600-dən yüksək bal toplayaraq Azərbaycan Dillər Universitetinə qəbul olunmuşam. Universitetdə daxili imtahan verərək Böyük Britaniyanın Essex Universiteti ilə birgə həyata keçirilən ikili diplom proqramında, Essex qrupunda təhsil almağa başladım. Daha sonra SABAH qruplarının seçim mərhələlərindən uğurla keçərək bu proqramda təhsilimi davam etdirdim və bakalavr səviyyəsini yüksək ortalama və fərqlənmə diplomu ilə tamamladım.

Bakalavr dövründə müxtəlif yerli və beynəlxalq layihələrdə iştirak etmişəm. “Erasmus+” proqramı çərçivəsində beynəlxalq təlim kurslarında iştirak etmiş, ATGTİ, AIESEC, UEFA, “Formula 1” və digər yerli və beynəlxalq platformalarda aktiv fəaliyyət göstərmişəm. Bu fəaliyyətlər mənə qlobal düşüncə, komanda işi və liderlik bacarıqları qazandırmaqla yanaşı, fərqli mədəniyyətlərlə işləmək və sosial təsir yaratmaq imkanları da təqdim edib.

2023-cü ildə “2022-2028 Dövlət Proqramı” çərçivəsində tam təqaüd qazanaraq Böyük Britaniyanın aparıcı ali təhsil müəssisələrindən biri olan Bristol Universitetində “Neuroscience and Education” ixtisası üzrə magistr təhsili almaq imkanı qazandım. Bu yaxınlarda təhsilimi uğurla tamamlayaraq ölkəyə qayıtmışam və qazandığım bilikləri həm təhsil sahəsində, həm də müxtəlif sosial və akademik təşəbbüslərdə tətbiq etməyi qarşıma məqsəd qoymuşam.

### “Seçimim heç də təsadüfi deyildi”

*- Xaricdə təhsil üçün Britaniya və Bristol Universitetini seçdiniz. Bu nə ilə əlaqədar idi? Səhv etmirəmsə, digər top-universitetlərdən də qəbul almışdınız...*

- Bəli, xaricdə təhsil üçün müraciət etdiyim dövrdə bir neçə yüksək reytinqli universitetdən qəbul almışdım. Bristol Universitetini seçməyim bir neçə mühüm səbəblə bağlı idi. İlk növbədə, mənim üçün maraqlı olan “Neuroscience and Education” sahəsi bu universitetdə kifayət qədər güclü inkişaf edib və bu sahədə çalışan aparıcı tədqiqatçılardan bəziləri məhz Bristolda dərs deyirlər. Araşdırmalarım zamanı onların elmi işləri ilə tanış oldum və bu, məndə həmin sahədə “işin əsl mütəxəssislərindən” öyrənmək istəyini daha da gücləndirdi. Universitetin təqdim etdiyi imkanlar da seçimimdə mühüm rol oynadı. Proqram təkcə nəzəri biliklər deyil, həm də praktiki bacarıqlar qazandıran dərslərlə zəngin idi. Kurs boyu real təhsil mühitlərində tətbiq olunan neyroelmi bilikləri öyrənmək imkanı yarandı və bu, mənim üçün çox dəyərli bir təcrübə oldu.

### Təhsil və beyin arasındakı əlaqələri araşdırmaq...

*- Seçdiyiniz ixtisas barədə məlumat verərdiniz. “Neyroelm və təhsil” sizin üçün nə dərəcədə maraqlı ixtisas sahəsidir?*

- “Neuroscience and Education” ixtisası mənim üçün çox xüsusi və maraqlı bir sahədir, çünki təhsil və beyin arasındakı əlaqələri araşdırmaq, tədris metodlarını daha effektiv etmək və öyrənmə proseslərini daha yaxşı başa düşmək üçün böyük potensiala sahibdir. İnsan beyninin öyrənmə qabiliyyətləri, yaddaşın işləmə prinsipləri, beyin inkişafı və təhsil mühitlərində bu proseslərin necə tətbiq edildiyini anlamaq mənim karyera məqsədlərim üçün çox vacibdir. Əsas maraq səbəbi həmçinin təhsilin inkişafı, xüsusi ilə də tədrisin daha inklüziv və individual yanaşma ilə həyata keçirilməsi məsələsidir. Təhsil hər bir insan üçün fərqlidir və bu sahənin beyin tədqiqatları ilə birləşdirilməsi tədrisin daha fərdi və təsirli şəkildə inkişaf etməsinə şərait yaradır. Mənim məqsədim, bu ixtisas sahəsində əldə etdiyim bilikləri praktikada tətbiq edərək, təhsil sahəsindəki məsələlərə daha elmi yanaşmalar gətirməkdir. Ayrıca, beyin və öyrənmə arasındakı əlaqəni öyrənmək, mənim üçün həm şəxsi, həm də peşəkar inkişaf baxımından çox dəyərli oldu. İxtisasım sayəsində əldə etdiyim biliklər mənə tədris metodlarının necə optimallaşdırılacağını, şagirdlərin öyrənmə proseslərini necə daha yaxşı başa düşəcəyimi və təhsildəki mövcud problemlərə yeni yanaşmalar təklif etməyi öyrətdi.

### Öyrənməyə ən yaxşı təsir edən faktorlar

*- Neyroelm və təhsil bir-birilə necə bağlıdır? Bu sahə hazırda nə dərəcədə prioritetdir?*

- Neyroelm və təhsil bir-biri ilə çox sıx əlaqəlidir, çünki beyin funksiyalarının öyrənmə və təhsil üzərindəki təsiri dərindən anlaşılarsa, tədris proseslərini daha effektiv şəkildə tərtib etmək mümkündür. Bu, təhsil mühitində fərdi fərqlilikləri anlamağa və hər bir tələbənin potensialını daha yaxşı şəkildə inkişaf etdirməyə imkan yaradır. Neyroelm və təhsil arasındakı əlaqənin əsas nöqtəsi, öyrənmə və yaddaşın beyin tərəfindən necə işlənməsi, hansı şəraitdə daha yaxşı nəticələr əldə olunduğu və müxtəlif mühitlərin bu proseslərə necə təsir etdiyi ilə bağlıdır. Məsələn, neyroelmi araşdırmalar göstərir ki, öyrənməyə ən yaxşı təsir edən faktorlar arasında emosional vəziyyət, sosial mühit və motivasiya kimi elementlər mövcuddur. Bu faktları nəzərə alaraq, müəllimlər və təhsil siyasətçiləri daha fərdi və məqsədyönlü tədris metodlarını inkişaf etdirə bilərlər.

Hazırda bu sahə xüsusilə prioritet təşkil edir, çünki təhsil sahəsindəki inkişaflar və elmi araşdırmalar beynin öyrənmə ilə əlaqədar fəaliyyətlərini daha dərindən izah etməyə başlayıb. Beynin strukturu və funksiyaları haqqında daha çox məlumat əldə etmək, təhsil sistemlərinin optimallaşdırılmasına və daha inklüziv təhsil yanaşmalarının tətbiqinə imkan verir.

### “Daha effektiv və maraqlı tədris yanaşmalarını təşviq etmək istərdim”

*- Bir gənc DP məzunu olaraq neyroelm və təhsili sahəsində biliklərinizi hansı sahələrdə reallaşdırmağı düşünürsünüz?*

- DP məzunu olaraq, mənim üçün əsas prioritet bu bilikləri Azərbaycan təhsil sistemində tətbiq etməkdir. Neyroelm və təhsil sahəsindəki tədqiqatlar, öyrənmənin necə baş verdiyini və bu proseslərin fərdi tələbələrə necə uyğunlaşdırıla biləceyini anlamağa kömək edir. Mənim məqsədim, bu sahədə qazandığım bilikləri təhsil proqramlarının inkişafında və tədris metodlarının təkmilləşdirilməsində tətbiq etməkdir.

Birinci növbədə, təhsil sahəsindəki müəllimlərə neyroelmə əsaslanan tədris metodlarını öyrətməyi planlaşdırıram. Eyni zamanda, müasir təhsil texnologiyalarının, xüsusən də rəqəmsal vasitələrin tədrisə inteqrasiyası ilə əlaqədar layihələrdə bu biliklərdən istifadə edərək, daha effektiv və maraqlı tədris yanaşmalarını təşviq etmək istərdim.

Bir neçə təhsil müəssisəsi ilə əməkdaşlıq qurmaq, müəllimlərə neyroelmə əsaslanan təlimlər təşkil etmək və fərqli öyrənmə üsullarını tətbiq edən proqramlar hazırlamaq, mənim üçün əhəmiyyətli addımlar olacaq. Bu, həm də gənclərin potensialını daha yaxşı inkişaf etdirmək və onların təhsil prosesində daha uğurlu olmalarını təmin etmək məqsədinə xidmət edə bilər.

### Neyroelm təhsil siyasətində yeniliklərə səbəb bilər

*- Sizcə, neyroelm və təhsilin kəsişmə nöqtələri hardadır? Və bu əlaqə təhsildə nə kimi problemləri həll edə bilər?*

- Neyroelm və təhsilin kəsişmə nöqtələri, öyrənmə proseslərinin beyində necə baş verdiyini anlamaqda və bu anlayışları təhsil metodlarına tətbiq etməkdədir. Hər bir tələbə fərqli şəkildə öyrənir və onların beyinləri müxtəlif yollarla yeni məlumatları işləyir. Bu sahənin kəsişməsi, təhsil sistemində fərdi yanaşmaları tətbiq etməyə imkan verir. Hər bir tələbənin fərdi ehtiyaclarına uyğun tədris metodları və strategiyalar hazırlanaraq, onların təhsil həyatını daha səmərəli və faydalı etmək mümkündür. Neyroelm sahəsi, beyin və öyrənmə ilə bağlı araşdırmalarla təhsilin təkmilləşdirilməsi arasında bir körpü rolunu oynayır. Neyroelm təhsildəki bir çox problemin həllində də mühüm rol oynaya bilər. Məsələn, diqqət çatışmazlığı və yaddaş problemləri yaşayan tələbələrə fərdi tədris yanaşmaları və xüsusi proqramlar vasitəsilə dəstək verə bilərik.

Bundan əlavə, neyroelm sahəsindəki biliklər təhsil siyasətində də yeniliklərə səbəb ola bilər. Məsələn, təhsil proqramlarının beynin inkişafına əsaslanaraq tərtib edilməsi, daha məhsuldar öyrənmə mühiti yaradılmasına kömək edə bilər.

### “Gələcək hədəflərim - həm şəxsi, həm də peşəkar inkişaf...”

*- Gələcək hədəfləriniz barədə.*

- Gələcək hədəflərim həm şəxsi, həm də peşəkar inkişafımı daha da irəlilətmək üzərində qurulub. Mənim əsas hədəfim təhsil sahəsindəki biliklərimi və neyroelm üzrə qazandığım təcrübəni Azərbaycanda tətbiq etməkdir. Təhsil sisteminə yeni yanaşmalar gətirərək, tələbələrin daha effektiv öyrənmələrini təmin etmək və onların şəxsi potensialını daha yaxşı reallaşdırmalarına kömək etmək mənim əsas məqsədlərimdəndir.

Hazırda aldığım data təhsili mənim bu hədəflərim üçün çox əhəmiyyətlidir. Data analizi və müxtəlif tədris metodlarının tətbiqi, tələbələrin inkişafını izləməyə və onların öyrənmə prosesini daha effektiv şəkildə dəstəkləməyə imkan verəcək. Data təhsili, təhsil sahəsində daha fərdiləşdirilmiş yanaşmaların tətbiqinə kömək edəcək, beləliklə, tələbələrin güclü tərəfləri və inkişaf sahələri daha doğru şəkildə müəyyən olunacaq. Eyni zamanda, mənim gələcək planlarım arasında beynəlxalq təhsil layihələrində iştirak etmək və yerli və beynəlxalq təhsil əlaqələrini gücləndirmək də var.

**Oruc MUSTAFAYEV**

Azərbaycan müəllimi.- 2025.- 19 aprel, №13.- S.2.